**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədlər Zəfər Ağamusa oğlu İsayev və Aydın Qaraş oğlu Hüseynovun 28 dekabr 2009-cu il tarixli 198 saylı, vətəndaş Saydın Əli oğlu Həsənovun 28 dekabr 2009-cu il tarixli 200 saylı, vətəndaş Zaur Qiyasəddin oğlu Xeyrullayevin 28 dekabr 2009-cu il tarixli 201 saylı, vətəndaşlar Şirzad Mirzə oğlu İbrahimov və digərlərinin 28 dekabr 2009-cu il tarixli 203 saylı, vətəndaş Ehtiram Qəhrəman oğlu Mehbalıyevin 28 dekabr 2009-cu il tarixli 204 saylı, vətəndaş Maarif Qaçay oğlu Quliyevin 28 dekabr 2009-cu il tarixli 206 saylı, bələdiyyə üzvlüyünə namizəd Güllər Rəhim qızı Hacıyevanın 28 dekabr 2009-cu il tarixli 207 saylı, bələdiyyə üzvülüyünə namizəd Güləbətin Əsədova və digərlərinin 28 dekabr 2009-cu il tarixli 209 saylı, bələdiyyə üzvlüyünə namizədlər Zahid Ayaz oğlu Sadıxov və digərlərinin 28 dekabr 2009-cu il tarixli 213 saylı, vətəndaşlar Cəmil Qiyas oğlu Məmmədli və digərlərinin 28 dekabr 2009-cu il tarixli 217 saylı, vətəndaş Qəhrəman Qaraxan oğlu Qəhrəmanovun 28 dekabr 2009-cu il tarixli 218 saylı, vətəndaş Xuraman Firqan qızı İsgəndərovanın 29 dekabr 2009-cu il tarixli 223 saylı, Hörmət Xanlar oğlu Salahov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 224 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Binəqədi bələdiyyəsinin üzvlüyünə namizədlər Zəfər Ağamusa oğlu İsayev və Aydın Qaraş oğlu Hüseynov 2009-cu il dekabrın 28-də, vətəndaş Saydın Əli oğlu Həsənov 2009-cu il dekabrın 28-də, 82 saylı Ağcabədi seçki dairəsi üzrə Ağcabədi bələdiyyəsinin üzvlüyünə namizəd Güllər Rəhim qızı Hacıyeva 2009-cu il dekabrın 28-də, vətəndaşlar Şirzad Mirzə oğlu İbrahimov, Asəf Əlifxan oğlu Məmmədov, Sarvan Xumsu oğlu Cəbrayılov, Yasər Əlyusif oğlu Həmidov 2009-cu il dekabrın 28-də, vətəndaş Ehtiram Qəhrəman oğlu Mehbalıyev 2009-cu il dekabrın 28-də, vətəndaş Maarif Qaçay oğlu Quliyev 2009-cu il dekabrın 28-də, bələdiyyə üzvlüyünə namizədlər Güləbətin Əsədova, Habil İliyev, Cəsarət Tağıyev, Lütfiyar Məmmədov, Asif Əliyev və Müslüm Rüstəmov 2009-cu il dekabrın 28-də, 75 saylı Lənkəran-Masallı seçki dairəsi üzrə Türkoba bələdiyyəsinin üzvlüyünə namizədlər Zahid Ayaz oğlu Sadıxov, Qəzənfər Kişi oğlu Fəttayev, Sofiq Süleyman oğlu Dadaşov, Rövşən Mütəllim oğlu Hüseynov və Cavanşir Siyab oğlu Ağayev 2009-cu il dekabrın 28-də, vətəndaşlar Qiyas Cəmil oğlu Məmmədli, Loğman Laçın oğlu Məmmədov, Maarif İzzət oğlu Mahmudov, Süleyman Nəzər oğlu Mehrəliyev 2009-cu il dekabrın 28-də, vətəndaş Qəhrəman Qaraxan oğlu Qəhrəmanov 2009-cu il dekabrın 28-də, vətəndaş Zaur Qiyasəddin oğlu Xeyrullayev 2009-cu il dekabrın 28-də, vətəndaş Xuraman Firqan qızı İsgəndərova 2009-cu il dekabrın 29-da, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Qızılkənd bələdiyyəsinin üzlüyünə namizədlər Hörmət Xanlar oğlu Salahov, Xudakərəm Əhməd oğlu Əhmədov, Fərhad Həsən oğlu Zamanov, Mədət Allahverdi oğlu Qurbanov, Əli Hadrı oğlu Məmmədov, İlqar Kəramət oğlu Əhmədov, Yadigar İsmayıl oğlu Əmiraslanov, Əzizxan İşıq oğlu Hüseynov 2009-cu il dekabrın 29-da bir sıra seçki dairələrinin ərazilərində seçki prosesi zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilmiş və onların verilmə tarixindən müəyyən edilmişdir ki, şikayətlər seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə

verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvləri şikayətlərin geri qaytarılması barədə rəylər vermişlər.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də iddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciətlər mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Bələdiyyə üzvlüyünə namizədlər Zəfər Ağamusa oğlu İsayev və Aydın Qaraş oğlu Hüseynovun 28 dekabr 2009-cu il tarixli 198 saylı, vətəndaş Saydın Əli oğlu Həsənovun 28 dekabr 2009-cu il tarixli 200 saylı, vətəndaş Zaur Qiyasəddin oğlu Xeyrullayevin 28 dekabr 2009-cu il tarixli 201 saylı, vətəndaşlar Şirzad Mirzə oğlu İbrahimov və digərlərinin 28 dekabr 2009-cu il tarixli 203 saylı, vətəndaş Ehtiram Qəhrəman oğlu Mehbalıyevin 28 dekabr 2009-cu il tarixli 204 saylı, vətəndaş Maarif Qaçay oğlu Quliyevin 28 dekabr 2009-cu il tarixli 206 saylı, bələdiyyə üzvlüyünə namizəd Güllər Rəhim qızı Hacıyevanın 28 dekabr 2009-cu il tarixli 207 saylı, bələdiyyə üzvülüyünə namizəd Güləbətin Əsədova və digərlərinin 28 dekabr 2009-cu il tarixli 209 saylı, bələdiyyə üzvlüyünə namizədlər Zahid Ayaz oğlu Sadıxov və digərlərinin 28 dekabr 2009-cu il tarixli 213 saylı, vətəndaşlar Cəmil Qiyas oğlu Məmmədli və digərlərinin 28 dekabr 2009-cu il tarixli 217 saylı, vətəndaş Qəhrəman Qaraxan oğlu Qəhrəmanovun 28 dekabr 2009-cu il tarixli 218 saylı, vətəndaş Xuraman Firqan qızı İsgəndərovanın 29 dekabr 2009-cu il tarixli 223 saylı, vətəndaş Hörmət Xanlar oğlu Salahov və digərlərinin 29 dekabr 2009-cu il tarixli 224 saylı müraciətləri qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli